*PAULUN*

# EFESLİLƏRƏ MƏKTUBU

## GİRİŞ

Paulun *«Efeslilərə Məktubu»*nun mövzusu əsasən məktubun 1:10-cu ayəsinin ətrafındadır:

*«Vaxt tamam olanda isə bu niyyətini yerinə yetirərək həm göylərdə, həm də yerdə olan hər şeyi Məsihdə birləşdirəcək».*

Bu həm də Allahın xalqına bir xahişdir ki, onlar Allahın böyük planına uyğun olaraq yaşayıb insanları İsa Məsihdə birliyə çatdırsınlar.

Məktubun birinci hissəsində müəllif Ata Allahın Öz xalqını seçməsi, onların günahlarını Oğlu İsa Məsih vasitəsilə bağışlaması və Allahın Müqəddəs Ruh tərəfindən zəmanət verilmiş vədi barədə danışır. Məktubun ikinci hissəsində Paul oxucularından xahiş edir ki, onların Məsihdəki birliyi yaşadığı həyatları ilə uyğun olsun.

Paul bu məktubu yazarkən məcazi mənada ifadələr işlədir. Bunu Allahın xalqının Məsihdə birliyini nümayiş etdirmək üçün edir. Məsələn, imanlı cəmiyyəti insan bədəninə, Məsih isə bu bədənin başına yaxud imanlılar binaya, Məsih isə guşədaşına bənzədilir. Paul həm də burada Məsihdə Allahın verdiyi lütfdən çox danışır. Hər bir şey Məsihin məhəbbətinin, bağışlamasının, lütfünün və paklığının nurunda göstərilir.

**Kitabın məzmunu:**

1:1-2 Giriş
1:3-3:21 Məsih və imanlılar cəmiyyəti
4:1-6:20 Məsihdə yeni həyat
6:21-24 Son salamlar

# 1

[1] [*]Allahın iradəsi ilə Məsih İsanın həvarisi olan mən Pauldan Məsih İsada
sadiq qalan Efesdəki müqəddəslərə salam! [2] Atamız Allahdan və Rəbb İsa
Məsihdən sizə lütf və sülh olsun!

### Məsihdə bizə bəxş olunan bəxtiyarlıq

[3] Bizə Məsihdə səmadakı hər cür ruhani nemətlə xeyir-dua verən Allaha –
Rəbbimiz İsa Məsihin Atasına alqış olsun! [4] O, dünya yaranmazdan qabaq

---

[*] **1:1** Həv. 18:19-21; 19:1

bizi Məsihdə seçdi ki, biz məhəbbətdə Onun qarşısında müqəddəs və
nöqsansız olaq. [5] Öz iradəsinin xoş məramına görə İsa Məsih vasitəsilə bizi
əvvəlcədən təyin etdi ki, Özü üçün övladlığa götürsün. [6] Belə ki sevimli
Oğlunda bizə bəxş etdiyi Öz lütfünün izzətini mədh edək. [7-8] *Tam hikmət və
dərrakə ilə bizə bol-bol göstərdiyi Öz zəngin lütfünə görə biz Oğlunda,
Onun qanı vasitəsilə satınalınmaya – təqsirlərimizin bağışlanmasına malikik.
[9] Allah əvvəlcə sirr olaraq saxladığı iradəsini xoş məramına görə bizə
bildirdi. Bu məramını O, Məsihdə əvvəlcədən təyin etmişdi. [10] Vaxt tamam
olanda isə bu niyyətini yerinə yetirərək həm göylərdə, həm də yerdə olan hər
şeyi Məsihdə birləşdirəcək.

[11] Hər şeyi Öz iradəsindən yaranan qərarı ilə yerinə yetirən Allahın
məqsədinə görə biz əvvəlcədən təyin edilərək Məsihdə irs aldıq ki,
[12] qabaqcadan Məsihə ümid bəsləyən bizlər Allahın izzətinin mədhi üçün
mövcud olaq. [13] Həqiqət kəlamını, xilasınızın Müjdəsini eşidib Məsihə iman
edən zaman siz də vəd olunmuş Müqəddəs Ruhla Onda möhürləndiniz.
[14] Müqəddəs Ruh Allaha məxsus olanların satın alınmasından ötrü irsimiz
üçün qoyulan girovdur. Belə ki Allahın izzətini mədh edək.

### Paulun imanlılar üçün duası

[15] Bundan ötrü mən də Rəbb İsaya olan imanınız və bütün müqəddəslərə
göstərdiyiniz məhəbbət barədə eşidib [16] sizi dualarımda yada salaraq
durmadan sizin üçün şükür edirəm. [17] Dua edirəm ki, Rəbbimiz İsa Məsihin
Allahı olan izzətli Ata Özünü sizə tanıtmaq üçün hikmət və vəhy ruhunu
versin. [18] *Qoy O, qəlbinizin gözünü nurlandırsın ki, Onun çağırışından
yaranan ümidin nə olduğunu, müqəddəslərə verdiyi irsin izzətinin necə
zəngin olduğunu, [19] Onun böyük qüvvəsinin fəaliyyətinə görə iman edən
bizlərə sərf etdiyi qüdrətinin hədsiz böyüklüyünün nə olduğunu görəsiniz.
[20] Allah bu qüdrətlə Məsihdə elə fəaliyyət göstərdi ki, Onu ölülər arasından
dirildib səmada Öz sağında oturtdu [21] və hər başçı, hakim, qüvvə və ağadan,
yalnız bu dövrdə deyil, gələcək dövrdə də çəkiləcək hər addan Onu çox
yüksəltdi. [22] * *Hər şeyi Ona tabe edərək ayaqlarının altına qoydu və Onu hər
şey üzərində baş olsun deyə imanlılar cəmiyyətinə verdi. [23] Bu cəmiyyət
Onun bədənidir və hər şeyi hərtərəfli Bütövləşdirənin bütövlüyüdür.

# 2

---

*__1:7-8__ Kol. 1:14
*__1:18-20__ Zəb. 110:1
*__1:22__ Zəb. 8:6
*__1:22-23__ Kol. 1:18

## Ölümdən həyata keçdik

1 *Siz bir zamanlar təqsirləriniz və günahlarınız üzündən ölü idiniz. 2 Siz bu
dünyanın gedişinə və havada olan hakimiyyətin, yəni indi Allaha itaətsiz
insanlarda fəaliyyət göstərən ruhun hökmdarına uyaraq bu günahların içində
həyat sürürdünüz. 3 Hamımız bir zamanlar həmin insanlar arasında cismin və
əqlin istəklərini yerinə yetirərək cismani təbiətimizin ehtiraslarına görə həyat
sürürdük. Beləliklə, təbiətcə digər insanlar kimi Allahın qəzəbinə düçar idik.
4 Lakin mərhəməti bol olan Allah bizi böyük məhəbbətlə sevdiyi üçün
5 təqsirlərimiz üzündən ölü olduğumuz halda bizə Məsihlə birlikdə həyat
verdi. Onun lütfü ilə xilas oldunuz. 6 Allah bizi Məsih İsada, Onunla birlikdə
diriltdib səmada oturtdu. 7 Bunu Məsih İsada bizə etdiyi xeyirxahlıqla
lütfünün hədsiz zənginliyini gələcək dövrlərdə də göstərmək üçün etdi.
8 Çünki iman vasitəsilə, lütflə xilas oldunuz. Bu, sizin nailiyyətiniz deyil,
Allahın hədiyyəsidir. 9 Əməllərlə deyil ki, heç kim öyünə bilməsin. 10 Çünki
biz Allahın yaratdığı əsərlərik, əvvəlcədən hazırladığı yaxşı əməllərinə görə
həyat sürmək üçün Məsih İsada yaradıldıq.

## Allahın yeni cəmiyyəti

11 Buna görə cismən başqa millətlərdən olan sizlər bir zamanlar kim
olduğunuzu yada salın; bədəndə əllə icra olunan sünnətə malik olub
«sünnətlilər» deyə tanınanların «sünnətsiz» adlandırdığı sizlər 12 o vaxt
Məsihsiz, İsrail vətəndaşlığından kənar, Allahın vədinə əsaslanan Əhdlərə
yad, dünyada ümidsiz və Allahdan məhrum idiniz. 13 Amma bir zamanlar
uzaq olan sizlər indi Məsih İsada Məsihin qanı sayəsində yaxın oldunuz.
14 *Çünki Məsih Özü barışığımızdır. O hər iki tərəfi bir etdi və bizi bir-
birimizdən ayıran səddi, yəni ədavəti Öz cismi ilə yıxdı. 15 Qanunu əmrləri
və qaydaları ilə birlikdə ləğv etdi ki, hər iki tərəfdən Özündə yeni bir insan
yaradaraq barışıq təmin etsin 16 və çarmıx vasitəsilə hər ikisini tək bədəndə
Allahla barışdırsın. O, ölümü ilə ədavəti yox etdi. 17 *O gəlib həm uzaqda
olan sizlərə, həm də yaxındakılara bu barışdırma Müjdəsini yaydı. 18 Çünki
hər iki tərəfdən olan bizlər Onun vasitəsilə bir Ruhda Atanın hüzuruna çıxa
bilərik. 19 Deməli, artıq yad və qərib deyilsiniz, siz müqəddəslərlə birgə
vətəndaş və Allah ailəsinin üzvüsünüz. 20 Həvarilərlə peyğəmbərlərin təməli
üzərində tikilmisiniz, guşədaşı isə Məsih İsa Özüdür. 21 Bütün bina Onun
üzərində birləşərək Rəbbə aid müqəddəs məbəd olmaq üçün ucalır. 22 Siz də
Ruh vasitəsilə Allahın məskəni olmaq üçün birlikdə Məsih üzərində

---

*__2:1-5__ Kol. 2:13
*__2:14-16__ Kol. 1:19-20; 2:14
*__2:17__ Yeş. 57:19

tikilirsiniz.

# 3

## Paula vəhy vasitəsilə bildirilən sirr

[1] Mən Paul siz başqa millətlərdən olanlar uğrunda Məsih İsanın
məhbusuyam. [2] Eşitdiyiniz kimi, Allahın sizin üçün mənə verdiyi lütfü sizə
çatdırmaq vəzifəsini daşıyıram. [3] Yuxarıda qısaca yazdığım kimi, Allah sirri
mənə vəhy vasitəsilə bildirdi. [4] [*]Yazdıqlarımı oxuyanda Məsihin bu sirrini
necə dərk etdiyimi anlaya bilərsiniz. [5] Bu sirr əvvəlki nəsillərin dövründə
bəşər övladlarına açıq bildirilməmişdi. İndisə Məsihin müqəddəs
həvarilərinə və peyğəmbərlərinə Ruh vasitəsilə açılmışdır. [6] Sirr budur ki,
başqa millətlər də Müjdə vasitəsilə Məsih İsada eyni irsin ortağı, eyni
bədənin üzvü və eyni vədin şərikidir.
[7] Allah qüdrətli fəaliyyəti ilə lütfünü mənə verdi, buna əsasən Müjdəni
yaymaq üçün xidmətçi oldum. [8] Bütün müqəddəslərdən ən dəyərsiziyəm.
Lakin Allah mənə bu lütfü verdi ki, Məsihin ağlasığmaz zənginliyi ilə bağlı
Müjdəni millətlərə yayım [9] və hər şeyi yaradan[a] Allahda əzəldən bəri sirr
olaraq saxlanan niyyətinin nə olduğunu bütün insanlara izah edim. [10] Belə ki
Allahın çoxcəhətli hikməti indi imanlılar cəmiyyəti vasitəsilə səmadakı
başçılara və hakimlərə bildirilsin. [11] Bu, Allahın əzəldən bəri qurduğu və
Rəbbimiz Məsih İsa vasitəsilə yerinə yetirdiyi məqsədinə görə oldu.
[12] Məsihdə və Məsihə olan iman vasitəsilə Allaha cəsarət və etibarla
yaxınlaşa bilirik. [13] Buna görə xahiş edirəm ki, mənim sizin üçün çəkdiyim
əziyyətlərdən ötrü ruhdan düşməyin. Bu sizə izzət gətirir.

## Məsihin məhəbbətini dərk etmək

[14-15] Buna görə göylərdə və yer üzündə hər ailəyə ad verən Atanın[b]
qarşısında diz çökürəm ki, [16] O, izzətinin zənginliyinə görə Öz Ruhu
vasitəsilə sizi daxili varlığınızda qüvvə ilə möhkəmləndirsin [17] və Məsih
iman vasitəsilə ürəklərinizdə yaşasın. Siz də məhəbbətdə kök salıb təməl
qoyasınız, [18] belə ki bütün müqəddəslərlə birlikdə Məsihin məhəbbətinin nə
qədər geniş, uzun, uca və dərin olduğunu başa düşməyə, [19] hər dərrakədən
üstün olan bu məhəbbəti dərk etməyə gücünüz çatsın. Beləliklə, siz Allahın
bütövlüyündə bütöv olasınız.
[20] Bizdə fəaliyyət göstərən qüdrətlə istədiyimiz yaxud düşündüyümüz hər

---

[*]**3:4-6** Kol. 1:25-27
[a]**3:9** *Yaradan* – bəzi əlyazmalarda *İsa Məsih vasitəsilə yaradan.*
[b]**3:14-15** *Atanın* – bəzi əlyazmalarda *Rəbbimiz İsa Məsihin Atasının.*

şeydən daha artığını etməyə qadir olan Allaha 21 imanlılar cəmiyyətində və
Məsih İsada izzət bütün nəsillər boyunca əbədi olsun! Amin.

# 4

## Bədənin birliyi

1 Beləliklə, Rəbdə olduğum üçün məhbus olan mən sizə yalvarıram ki,
aldığınız çağırışa layiq şəkildə həyat sürəsiniz. 2 *Tamamilə itaətkar və
həlim, səbirli olub bir-birinizə məhəbbətlə dözün. 3 Ruhun birliyini sülh bağı
ilə qorumağa çalışın. 4 Çağırış aldıqda bir ümidə çağırıldığınız kimi bədən
bir, Ruh bir, 5 Rəbb bir, iman bir, vəftiz bir, 6 hamının Allahı və Atası birdir.
O hamı üzərində, hamı ilə və hamıdadır.
7 Hər birimizə isə Məsihin bəxşişinin ölçüsü ilə lütf verilmişdir. 8 *Bunun
üçün belə deyilir:

«Ucalara çıxıb əsirləri Özü ilə apardı,
İnsanlara hədiyyələr verdi».

9 Bəs bu «çıxıb» sözü nə deməkdir? Yalnız o deməkdir ki, Məsih əvvəlcə
aşağılara, yer üzünə də enmişdi. 10 Enən də Odur, hər şeyi bütövləşdirmək
üçün bütün göylər üzərinə çıxan da Odur. 11 Özü kimini həvari, kimini
peyğəmbər, kimini müjdəçi, kimini çoban[c] və müəllim təyin etdi ki,
12 Məsihin bədəninin inkişafından ötrü xidmət vəzifəsini yerinə yetirmək
üçün müqəddəsləri təmin etsinlər. 13 Bunun nəticəsində hamımız imanda və
Allahın Oğlunu tanımaqda birliyə, kamil insan səviyyəsinə, Məsihin tam
yetkinliyi həddinə çatacağıq. 14 Belə ki artıq insanların kələkbazlığı ilə, bizi
yoldan azdırmaq üçün hazırladıqları hiylələrlə, cürbəcür təlimin küləyi ilə
çalxalanan və ora-bura sürüklənən körpə uşaqlar olmayaq. 15 Əksinə,
məhəbbətlə həqiqəti yerinə yetirərək bədənin Başı olan Məsihə bənzəmək
üçün hərtərəfli böyüyək. 16 *Bütün bədən Onunla birləşdiyi üçün hər
buğumun köməyi ilə üzvi surətdə Ona bağlanıb qurulur və hər üzvün
ahəngdar işləməsi ilə böyüyür, məhəbbətlə inkişaf edir.

## Köhnə həyat və yeni həyat

17 Beləliklə, bunu Rəbdə olaraq deyir və xəbərdarlıq edirəm ki, siz artıq
başqa millətlər kimi boş düşüncələrlə həyat sürməyin. 18 Onların şüurlarını
qaranlıq alıb və mənəviyyatca nadan, qəlbən inadkar olduqlarına görə Allah

---

*__4:2__ Kol. 3:12-13
*__4:8__ Zəb. 68:18
[c]__4:11__ *Çoban* – yəni cəmiyyət rəhbəri.
*__4:16__ Kol. 2:19

həyatına yad oldular. [19] Həssaslığı hərtərəfli itirərək hərisliklə hər cür murdar
işlər üçün özlərini pozğunluğa verdilər. [20] Sizsə Məsihi elə öyrənməmisiniz.
[21] Əlbəttə, siz İsanın səsini eşitdiniz və İsada – Ondakı həqiqətə əsasən təlim
aldınız. [22] *Bu təlimə görə əvvəlki həyat tərzinizə məxsus olub aldadıcı
ehtiraslarla pozulmaqda olan köhnə mənliyi kənara atın, [23] ruhən və əqlən
yeniləşin, [24] əsl salehlik və müqəddəsliklə Allaha bənzər yaradılmış yeni
mənliyə bürünün.
[25] *Buna görə yalanı kənara atın, hər biriniz öz qonşunuza həqiqəti
söyləyin, çünki hamımız eyni bədənin üzvləriyik. [26] *Qəzəblənərkən günah
işlətməyin. Günəş batmazdan əvvəl qəzəbinizi soyudub [27] iblisə yer
verməyin. [28] Oğurluq edən artıq oğurluq etməsin, əksinə, zəhmət çəkib öz
əlləri ilə yaxşı əməl etsin ki, ehtiyacı olanlarla bölüşdürməyə bir şeyi olsun.
[29] Ağzınızdan heç bir pis söz çıxmasın, amma eşidənlərə xeyir versin deyə
lazım olanda başqalarının inkişafına səbəb olan sözlər deyin. [30] *Allahın
Müqəddəs Ruhunu kədərləndirməyin. Çünki satınalınma günü üçün o Ruhla
möhürləndiniz. [31] Qoy hər cür kinlə birlikdə acılıq, hiddət, qəzəb, çığırtı,
böhtançılıq büsbütün sizdən uzaq olsun. [32] *Amma bir-birinizə qarşı
xeyirxah, rəhmli olun və Allah Məsihdə sizi bağışladığı kimi siz də bir-
birinizi bağışlayın.

# 5

[1] Beləliklə, sevimli övladlar kimi Allahdan nümunə götürün. [2] *Məsih bizi
necə sevdisə, Özünü bizim üçün Allahın xoşuna gələn ətirli təqdim və
qurban olaraq fəda etdisə, siz də məhəbbətdə elə həyat sürün.
[3] Əxlaqsızlığın, hər cür murdarlığın və yaxud tamahkarlığın adı belə,
aranızda çəkilməsin, çünki bunlar müqəddəslərə yaraşmaz. [4] Ədəbsizlik,
boşboğazlıq və yaxud kobud zarafat da olmasın. Bunlar sizə yaramaz.
Bunun əvəzində qoy şükür olsun. [5] Əlbəttə, bilirsiniz ki, heç bir əxlaqsız,
murdar yaxud bütpərəstə tay olan tamahkar adam Məsihin və Allahın
Padşahlığında irsə malik olmayacaq.

## Nurda gəzin

[6] Qoy heç kim sizi boş sözlərlə aldatmasın. Bu şeylərə görə Allahın qəzəbi

---

*__4:22-24__ Yar. 1:26; Kol. 3:9,10
*__4:25__ Zək. 8:16
*__4:26__ Zəb. 4:4
*__4:30__ Yeş. 63:10
*__4:32__ Kol. 3:13
*__5:2__ Çıx. 29:18; Zəb. 40:6

itaətsiz adamların üzərinə gəlir. [7] Buna görə də onların şəriki olmayın. [8] Siz
də bir zamanlar zülmət idiniz, indi isə Rəbdə nursunuz. Ona görə də nur
övladları kimi həyat sürün. [9] Çünki nurun bəhrəsi[d] hər cür yaxşılıqda,
salehlikdə və həqiqətdə görülür. [10] Rəbbi razı salan şeyləri ayırd edin,
[11] qaranlığın səmərəsiz əməllərinə şərik olmayın. Əksinə, bunları ifşa edin.
[12] Belə ki qaranlıqdakıların gizlicə etdikləri şeyləri söyləmək də ayıbdır.
[13] Nurun ifşa etdiyi hər şey aşkardır, [14] bu cür nə aşkara çıxırsa, özü də nur
olur. Buna görə belə deyilir:

«Ey yatan, oyan və ölülər arasından diril!
Məsih sənin üzərinə nur saçacaq».

[15] Beləliklə, həyat tərzinizə ciddi diqqət yetirin, müdriklikdən məhrum
olanlar kimi deyil, müdriklər kimi həyat sürün. [16] [*]Hər fürsətdən istifadə
edin, çünki günlər şərdir. [17] Buna görə ağılsız olmayın, Rəbbin iradəsini dərk
edin. [18] Şərabdan sərxoş olmayın, bu sizi mənəviyyatsızlığa aparır. Bunun
əvəzinə Ruhla dolun. [19] [*]Bir-birinizə məzmurlar, ilahilər və ruhani nəğmələr
oxuyun, Rəbbə ürəkdən nəğmələr çalıb-oxuyun. [20] Həmişə hər şeyə görə
Rəbbimiz İsa Məsihin adı ilə Ata Allaha şükür edin.

## Evdə olan münasibətlər

[21] Məsih qorxusu ilə bir-birinizə tabe olun.
[22] [*]Ey qadınlar, Rəbbə tabe olduğunuz kimi ərlərinizə tabe olun. [23] Çünki
bədənin Xilaskarı olan Məsih imanlılar cəmiyyətinin Başı olduğu kimi ər də
arvadının başıdır. [24] Ona görə cəmiyyət Məsihə tabe olduğu kimi arvadlar da
hər vəziyyətdə öz ərlərinə tabe olsun.
[25] [*]Ey ərlər, Məsih imanlılar cəmiyyətini sevib onun uğrunda Özünü fəda
etdiyi kimi siz də arvadlarınızı sevin. [26] Məsih bunu ona görə etdi ki,
cəmiyyəti su ilə yuyub kəlamla təmizləyərək təqdis etsin [27] və beləcə onda
ləkə, qırışıq yaxud başqa qüsur olmadan izzətli şəkildə, müqəddəs və
nöqsansız olaraq Öz hüzuruna çıxarsın. [28] Ərlər də eyni şəkildə arvadlarını
öz bədənləri kimi sevməlidirlər. Arvadını sevən özünü sevir. [29] Çünki heç
kim heç zaman öz vücuduna nifrət etməz. Əksinə, Məsih cəmiyyətə
yanaşdığı kimi onu bəsləyib qayğısına qalar. [30] Axı biz Onun bədən
üzvləriyik.[e]

---

[d]**5:9** *Nurun bəhrəsi* – bəzi əlyazmalarda *Ruhun səmərəsi* (Qal. 5:22).
[*]**5:16** Kol. 4:5
[*]**5:19-20** Kol. 3:16-17
[*]**5:22** Kol. 3:18; 1Pet. 3:1-2
[*]**5:25** Kol. 3:19; 1Pet. 3:7
[e]**5:30** *Üzvləriyik* – bəzi əlyazmalarda *üzvləriyik, Onun ətindən,*

[31] *«Buna görə də kişi ata-anasını tərk edib arvadına qovuşacaq və
ikisi bir bədən olacaq».
[32] Bu sirr böyükdür, mən bunun Məsihə və cəmiyyətə dəxli olduğunu
söyləyirəm. [33] Sizə gəlincə, qoy hər kəs öz arvadını özü kimi sevsin, arvad
isə ərinə ehtiram etsin.

# 6

[1] *Ey övladlar, Rəbdə olduğunuza görə ata-ananıza itaət edin. Bu
haqdandır. [2] *İçində vəd olan ilk əmr budur: «Ata-anana hörmət et ki, [3] xoş
güzəranın və yer üzündə ömrün uzun olsun».
[4] *Ey atalar, siz də övladlarınızı qəzəbləndirməyin, ancaq onları Rəbbin
tərbiyə və öyüdü ilə böyüdün.
[5] *Ey qullar, Məsihə itaət etdiyiniz kimi dünyəvi ağalarınıza da qorxu və
lərzə ilə səmimi qəlbdən itaət edin. [6] Bunu yalnız insanları razı salmaq üçün
gözə xoş görünən xidmətlə deyil, Məsihin qulları kimi can-dildən Allahın
iradəsini yerinə yetirmək üçün edin. [7] İnsanlara deyil, Rəbbə qulluq etdiyiniz
kimi ürəkdən qulluq edin. [8] Bilin ki, istər qul, istərsə də azad – hər bir kəs
gördüyü yaxşı işin əvəzini Rəbdən alacaq.
[9] *Ey ağalar, siz də həmçinin qullarınızla bu cür rəftar edin. Daha onlara
hədə-qorxu gəlməyin. Bilin ki, onların da, sizin də Ağanız göylərdədir və O,
insanlar arasında tərəfkeşlik etməz.

### Allahın verdiyi ruhani zireh və silahlar

[10] Nəhayət, Rəbdə və Onun böyük qüvvəsində möhkəmlənin. [11] İblisin
hiylələrinə qarşı dura bilmək üçün Allahın verdiyi bütün zireh və silahlara
bürünün. [12] Çünki mübarizəmiz qandan və ətdən ibarət olan insanlara qarşı
deyil, şər başçılarına və hakim olanlara, bu qaranlıq dünyanın
hökmranlarına, səmadakı ruhani şər qüvvələrə qarşıdır. [13] Buna görə Allahın
bütün zireh və silahlarını götürün ki, pis gündə müqavimət göstərib,
əlinizdən gələn hər bir şeyi etdikdən sonra dayana biləsiniz. [14-15] *Beləliklə,
həqiqəti kəmər kimi belinizə bağlamış, salehliyi zireh kimi döşünüzə taxmış,

---

*sümüklərindənik.*

*__5:31__ Yar. 2:24

*__6:1__ Kol. 3:20

*__6:2-3__ Çıx. 20:12; Qanun. 5:16

*__6:4__ Kol. 3:21

*__6:5-8__ Kol. 3:22-25

*__6:9__ Qanun. 10:17; Kol. 3:25; 4:1

*__6:14-15__ Yeş. 52:7; 59:17

barışıq Müjdəsini yaymaq hazırlığını ayaqlarınıza geyinmiş olaraq yerinizdə
durun. 16 Bütün bunlara əlavə olaraq şər olanın bütün yanar oxlarını söndürə
bilmək üçün iman qalxanını əlinizə götürün. 17 *Xilas dəbilqəsini və Ruhun
qılıncını, yəni Allahın kəlamını götürün. 18 Hər cür dua və yalvarışla, həmişə
Ruhun idarəsi ilə dua edin. Bu məqsəd uğrunda tamamilə mətin olub oyaq
qalaraq bütün müqəddəslər üçün dua edin. 19-20 Ağzımı hər açanda mənə
lazımi söz verilsin deyə mənim üçün də dua edin ki, uğrunda zəncirlə bağlı
halda elçilik etdiyim Müjdənin sirrini açım və bu Müjdəni lazımınca
cəsarətlə bəyan edə bilim.

### Salam göndərmə

21 * *Necə olduğumu və nə iş gördüyümü siz də biləsiniz deyə Rəbdə
sevimli qardaş və sadiq xidmətçi Tixik sizə hər şeyi bildirəcək. 22 Onu bu
məqsədlə yanınıza göndərdim ki, bizim vəziyyətimizdən xəbərdar olasınız
və o sizin qəlbinizi ovutsun.

23 Ata Allah və Rəbb İsa Məsihdən bacı-qardaşlara sülh və imanla
məhəbbət olsun. 24 Rəbbimiz İsa Məsihi ölməz məhəbbətlə sevənlərin
hamısına lütf olsun!

---

*__6:17__ Yeş. 59:17; 1Sal. 5:8
*__6:21__ Həv. 20:4; 2Tim. 4:12
*__6:21-22__ Kol. 4:7-8